Ambasciata d'Italia
Baku

YAY

SOLO EXHIBITION

# MARCO ANGELINI

## LIGHT AS A METAPHOR FOR ENERGY TRANSITION

CURATED BY: **JAN KOZACZUK**

Baku, Azerbaijan

NOVEMBER 18 – DECEMBER 31, 2024

PRESS-RELEASE



Ethical tension, 2021, mixed media on canvas, 90x70 cm

The solo exhibition of Italian artist Marco Angelini, organized by the Italian Embassy in Azerbaijan in partnership with YAY Gallery, coinciding with the 29th Conference of the Parties on Climate (COP29), showcases 30 of Angelini's works, crafted with vivid colour and photovoltaic cells. COP29 serves as a critical platform to explore and develop collaborative strategies for global environmental preservation.

**In the exhibition catalogue, curator Jan Kozaczuk writes:** "Marco Angelini, a contemporary Italian artist, explores the intersection of light and matter through his abstract works. His creative process is inspired by a rich historical and scientific legacy, primarily examining how humans perceive light. For Angelini, light transcends its role as a mere expressive tool; it becomes a dynamic, interactive force that draws viewers into a profound visual and reflective experience, actively shaping and transforming the realities it illuminates.

Angelini treats light as something that passes through his work and as an active agent that structures it. His use of light is dynamic, expanding and multiplying to give form, embodying the principle of hoc opus facit—"this light creates the work."

Drawing from humanity's enduring fascination with light's 'magical' qualities and modern insights into its dual nature as both wave and particle, Angelini demonstrates how light creates depth, movement, and form within the painted space.

His works reflect the rapid technological transformations of our era, offering a multi-layered narrative that addresses the theme of energy transition. Through his art, he captures life's vitality and resilience, inviting us to illuminate the future through technological advancement and by fostering a more inclusive and socially aware society."

**About the artist:**

**Marco Angelini** was born in Rome in 1971 and lives and works between Rome and Warsaw. Trained as a sociologist and driven by his artistic calling, he explores urban phenomena, cultures, and, in particular, the subcultures that emerge in the world's metropolises. Cities create environments where unconscious impulses are brought to light,

interacting through and with technology, which introduces radical new possibilities. In this way, cities become the nucleus and ideal setting for human paradoxes and contradictions.

Angelini's artistic research spans diverse themes, often pursued simultaneously: nature and technology, time and memory, interreligious dialogue and the concept of the "sacred," as well as intersections between art and science, energy, and sustainability.

His abstract approach embodies his fluid and evolving aesthetic, suggesting the presence of multiple realities.

Marco Angelini is passionate about art's potential to play a transformative social role by making unseen things visible, drawing attention to them, and fostering new avenues for sharing, communication, and introspection.

He has held solo exhibitions in Rome, Milan, Warsaw, Krakow, London, Bratislava, Algiers, Santiago de Chile, Bologna, and Marseille, and participated in group exhibitions in public and private galleries across New York, Washington DC, Tel Aviv, Abu Dhabi, Warsaw, Zamość, Szczecin, Munich, Essen, London, Brussels, Rome, Lucca, and Genoa.

His work is held by various collectors, with one piece featured in the private collection of Fondazione Roma.

**About YAY Gallery:**

Established in 2012, YAY Gallery is located in the heart of Baku's Old City which sits amongst designated UNESCO world heritage sites.

The gallery was founded by YARAT Contemporary Art Space, a non-profit organization committed to supporting the art infrastructure in Azerbaijan.

The primary activity of YAY Gallery is to organize exhibition-sales events featuring works by talented and promising young artists from Azerbaijan and other countries, as well as by renowned and experienced artists. The revenue generated from the sale of artworks is shared between the artists and the YARAT Contemporary Art Space organization.

Another priority of YAY Gallery is to serve as a platform for the exchange of ideas and experiences by organizing lectures, seminars, film screenings, and other events conducted by artists and professionals working in the field of art.

**Exhibition duration:**
November 18 – December 31, 2024
**Working hours:**
Tuesday - Sunday, 12:00 - 20:00
**Address:** 5 Kichik Gala St.
**Free admission**

**About media and for images contact:**
Narmin Hasanzadeh
Phone.: +994 51 301 9192
E-mail: narmin.h@yarat.az

**www.yaygallery.az**

Ambasciata d'Italia
Baku

YAY

FƏRDİ SƏRGİ

# MARKO ANCELİNİ

## İŞIQ ENERJİ KEÇİDİNİN METAFORASI KİMİ

KURATOR: **YAN KOZAÇUK**

Bakı, Azərbaycan

18 NOYABR – 31 DEKABR 2024

PRESS-RELİZ



Etik gərginlik, 2021, kətan, qarışıq texnika, 90x70 sm

İtaliyan rəssamı Marko Ancelininin müxtəlif rəng və materiallarla yaratdığı 30 əsərindən ibarət fərdi sərgisi, İtaliyanın Azərbaycandakı Səfirliyi tərəfindən və YAY Qalereyasının əməkdaşlığı ilə, İqlim üzrə Tərəflərin Konfransının 29-cu sessiyasına (COP29) təsadüf edərək təşkil olunur. COP29, qlobal ekoloji mühafizə üçün əməkdaşlıq strategiyalarını araşdırmaq və inkişaf etdirmək üçün vacib bir platforma rolunu oynayır.

**Sərginin kuratoru Yan Kozaçuk qeyd edir:** "Müasir italyan rəssamı Marko Ancelini abstrakt əsərləri vasitəsilə işıq və maddənin kəsişməsini araşdırır. Onun yaradıcı prosesi zəngin tarixi və elmi irsdən ilham alır həmçinin insanların işığı necə qavradığını araşdırır. Rəssam üçün işıq sadəcə ifadə vasitəsi olmaqdan çıxır; o, tamaşaçıları dərin vizual və refleksiv təcrübəyə cəlb edən dinamik, interaktiv bir gücə çevrilir, işıqlandırdığı reallıqları aktiv şəkildə formalaşdırır və dəyişdirir.

Ancelini, işığı əsərlərinin içindən keçən və onu struktura çevirən aktiv bir vasitə kimi qəbul edir. Onun işıqdan istifadəsi dinamikdir, genişlənir və çoxalaraq forma yaradır, hoc opus facit ("işıq əsəri yaradır") prinsipini əks etdirir. İnsanların işığın "sehrli" keyfiyyətlərinə olan davamlı marağından və onun həm dalğa, həm də zərrəcik kimi ikili təbiəti ilə bağlı müasir biliklərdən ilham alan Ancelini, işığın rəsm məkanında dərinlik, hərəkət və forma yaratdığını nümayiş etdirir.

Onun əsərləri dövrümüzün sürətli texnoloji dəyişikliklərini əks etdirir və enerji keçidi mövzusuna dair çoxqatlı bir hekayə təqdim edir. Sənəti vasitəsilə həyatın canlılığını və dözümlülüyünü ifadə edən Ancelini, texnoloji inkişaf və daha inklüziv, sosial baxımdan məlumatlı bir cəmiyyət yaratmaqla gələcəyi işıqlandırmağa dəvət edir".

**Rəssam haqqında:**

**Marko Ancelini** 1971-ci ildə Romada anadan olub və fəaliyyətini Roma ilə Varşava arasında davam etdirir. Sosioloq kimi təhsil almış rəssam yaradıcılığında şəhər fenomenləri, mədəniyyətlər və xüsusilə də dünyanın böyük şəhərlərində yaranan altmədəniyyətləri araşdırır.

Şəhərlər, şüuraltı impulsların işıqlandırıldığı və texnologiya vasitəsilə qarşılıqlı təsir göstərdiyi mühitlər yaradır ki, bu da radikal yeni imkanlar təqdim edir. Bu yolla şəhərlər insan paradoksları və ziddiyyətləri üçün və ideal bir səhnəyə çevrilir.

Ancelininin bədii tədqiqatı müxtəlif mövzuları əhatə edir: təbiət və texnologiya, zaman və yaddaş, dinlərarası dialoq və “müqəddəs” anlayışı, eləcə də incəsənət və elm, enerji və davamlılıq arasındakı kəsişmələr. Onun abstrakt yanaşması, axıcı və inkişaf edən estetikası ilə çoxsaylı reallıqların mövcudluğunu təklif edir.

Marko Ancelini, görünməyənləri görünən edərək, onlara diqqət çəkərək və paylaşım, ünsiyyət və introspeksiya üçün yeni yollar açaraq incəsənətin transformativ sosial rol oynamaq potensialına maraq göstərir.

Rəssamın Roma, Milan, Varşava, Krakov, London, Bratislava, Əlcəzair, Santyaqo, Bolonya və Marseldə fərdi sərgilər təşkil olunub, həmçinin Nyu-York, Vaşinqton, Təl-Əviv, Əbu-Dabi, Varşava, Zamoşç, Şetsin, Münxen, Essen, London, Brüssel, Roma, Lukka və Genuyada yerləşən bir çox dövlət və özəl qalereyalarında keçirilən qrup sərgilərinin iştirakçısıdır. Onun əsərləri müxtəlif kolleksiyalarda yer alır, bir əsəri isə Fondazione Romanın kolleksiyasında saxlanılır.

**YAY Qalereyası haqqında:**

2012-ci ildə təsis olunan YAY Qalereyası, Bakının UNESCO Dünya İrs Siyahısına daxil edilmiş tarixi İçərişəhərinin mərkəzində yerləşir. Qalereya, Azərbaycanın incəsənət infrastrukturunu dəstəkləməyə həsr olunmuş qeyri-kommersiya təşkilatı olan YARAT Müasir İncəsənət Məkanı tərəfindən yaradılmışdır.

YAY Qalereyasının əsas fəaliyyəti, Azərbaycan və digər ölkələrdən olan istedadlı və perspektivli gənc rəssamların, eləcə də tanınmış və təcrübəli rəssamların əsərlərini nümayiş etdirən sərgi-satış tədbirlərinin təşkili ilə məşğul olmaqdır. Əsərlərin satışından əldə olunan gəlir rəssamlarla YARAT Müasir İncəsənət Məkanı arasında bölüşdürülür.

YAY Qalereyasının digər prioritetlərindən biri, incəsənət sahəsində çalışan rəssamlar və mütəxəssislər tərəfindən keçirilən mühazirələr, seminarlar, film nümayişləri və digər tədbirlər vasitəsilə ideyaların və təcrübələrin mübadiləsi üçün bir platforma kimi xidmət göstərməkdir.

**Sərginin müddəti:**
18 noyabr – 31 dekabr, 2024
**Sərginin is rejimi:**
Çərşənbə axşamı – bazar, 12:00 - 20:00
**Ünvan:** Kiçik Qala küç., 5
**Giriş ödənişsizdir**

**Media məlumatları və təsvirlər üçün əlaqə:**
Nərmin Həsənzadə
Tel.: +994 51 301 9192
E-poçt: narmin.h@yarat.az

**www.yaygallery.az**